**“II Milli Mühasiblər Forumu”**
(Şamaxı şəhəri, 28-29 aprel 2018-ci il)

**Ümumi məlumat:**

Dəyişən dünyada Qlobal məkanda amansız rəqabətə tab gətirmək yolunda Azərbaycanın sürətlə irəliləməsi ölkə iqtisadiyyatının təşkili və inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini zəruri edir. Ölkə iqtisadiyyatının davamlı tərəqqisini təmin edən amillərdən biri də dövlət və özəl sektorda şəffaflığın, hesabatlılığın, uçotun təminində mühasibat uçotunun müasir tələblərə uyğun təşkil olunmasıdır. Mühasibat uçotu sahəsində müasir çağırışları nəzərə alaraq Milli Mühasiblər Forumu Azərbaycan mühasiblərinin problemlərinin öyrənilməsi, mühasibat uçotu və vergi qanunvericiliyi üzrə tədqiqatların və elmi araşdırmaların stimullaşdırılması, beynəlxalq təcrübə üzrə məlumatlılığın artırılması məqsədi ilə hər il Forum keçirir. Bununla yanaşı mühasibləri, sahənin alimlərini, ictimai xadimləri və digər maraqlananları bir araya toplayaraq mövzular ətrafında müzakirələr aparmaq, innovativ fikirləri paylaşmaq, təklif və tövsiyələr toplamağa nail olmaqdır.

Məlum olduğu kimi, artıq 8 aprel 2017-ci ildə Şamaxı şəhərindəki AR Vergilər Nazirliyinin Tədris Mərkəzində Azərbaycanda ilk dəfə olaraq "I Milli Mühasiblər Forumu" keçirilmişdir. Forum Azərbaycan Respublikası Vergilər Nazirliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, İqtisadi Resursların Öyrənilməsi İB, İqtisadi Araşdırmalar və Tədris Mərkəzi, Gənc Mühasiblər Birliyi və SİNAM şirkətinin birgə təşkilatçılığı ilə baş tutmuşdur.

Qeyd olunan təşkilatçılar 28-29 aprel 2018-ci il tarixlərində Şamaxı şəhərindəki AR Vergilər Nazirliyinin Tədris Mərkəzində **“II Milli Mühasiblər Forumu”**-nu keçirəcəklər.

## FORUMUN BAŞLICA BÖLMƏLƏRİ:

- **Forum**
- **Sosial tədbirlər**
- **Mükafatlandırma mərasimi**
- **Azərbaycan mühasiblərinin II Breyn-Rinq yarışması**

## FORUMDA İŞTİRAKIN FORMALARI:

Forumda 6 şəkildə iştirak mümkün olacaqdır:

- **Xüsusi dəvətli qonaq;**
- **Məruzəçi – təqdimatla çıxış;**
- **İştirakçı;**
- **Sərgi təqdimatı;**
- **Könüllü;**
- **Müsabiqə qalibləri;**

**QEYD: İştirakçı Forumun Qeydiyyat Formasını dolduran zaman göstərilən formalardan özünə uyğun gələni seçməlidir.**

## I XÜSUSİ DƏVƏTLİ QONAQ

**Forumun Təşkilat Komitəsinin qərarı əsasında xarici ölkələrdən və respublika daxilindən dəvət olunur.**

## II FORUMDA MƏRUZƏ İLƏ ÇIXIŞ

**Forumda aşağıdakı mövzular üzrə bölmələr təşkil olunacaq:**

1. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi;
2. Vergi qanunvericiliyi və mühasibat uçotu;
3. Büdcə və QHT sektorunda uçot və hesabatın təşkili problemləri;
4. Kommersiya qurumlarında uçot və hesabatın problemləri;
5. Mühasibat proqramları təminatında müasir çağırışlar;
6. Təhsil və sertifikasiya;
7. Mühasibat uçotu üzrə karyera və şəxsi inkişaf imkanları;

**Forumda məruzəçilərin (spikerlərin) seçilməsi qaydası:**

**Bu hissə iki mərhələdən ibarətdir.**

**I mərhələ: Məruzəçinin seçilməsi**

***İddiaçı annotasiyasını qeydiyyat formasında çıxış istəyini göstərməklə təşkilat komitəsinə müraciət etməlidir.***

Məqalə annotasiya və əsas mətn hissəsindən ibarət olmalıdır;
Annotasiyalar Forumun adına və ya yuxarıda göstərilən bölmə mövzularına uyğun olmalıdır.
Bir şəxs Forumun proqramına uyğun yalnız bir məruzə ilə çıxış edə bilər;

***<u>Annotasiya hissəsi ilə bağlı tələblər:</u>***

Annotasiya azərbaycan dilində yazılmalıdır;
Annotasiya 1 səhifədən çox olmamalıdır. Maksimum. 400 söz;
Office Word və PDF şəklində olmalıdır;
Səhifə ölçüləri A4 (210 mm. x 297 mm.) 19 mm bütün tərəflərindən yer buraxılmalı
Font: Times New Roman, 12 ölçüdə, sətrarası məsafə 1.0;
Məqalənin adı: 85 işarədən çox olmamaqla, 12 şrift və bold (yağlı) yazıda;
Əsas müəllif: adı, familiyası, vəzifəsi, işlədiyi yer
Əlaqə məlumatları: tam ünvanı, telefon nömrələri, e-mail&website məlumatları;
Müştərək müəllif: adı, familiyası, vəzifəsi, işlədiyi yer;
Açar sözlər: maksimum 6 açar söz yazmağınız xahiş olunur;

Bu mərhələdə təşkilat komitəsinin ekspertləri tərəfindən annotasiyaların seçimi həyata keçirilərək Foruma tövsiyə olunan məruzəçilər növbəti mərhələyə dəvət ediləcəkdir.

**II mərhələ: Məruzənin tam mətninin və ya təqdimatın slaydlarını təşkilat komitəsinə təqdim olunması**

Bu hissə məruzəçinin istəyinə uyğun olaraq doldurulur. Beləki, məruzəçi Forumun materiallarında çıxışının geniş mətninin çap olunmasını istəyirsə onu yazaraq təşkilat komitəsinə göndərir.
İkinci halda yalnız təqdimatının slaydlarını göndərir.

**<u>Məruzənin mətni üçün tələblər:</u>**

Maksimum 4 səhifə olmaqla, bura giriş, mövzunun əsas hissəsi, nəticələr və qısa ədəbiyyat siyahısı daxildir;

Office Word və PDF şəklində olmalıdır;
Səhifə ölçüləri A4 (210mm x 297mm) 19mm bütün tərəflərindən yer buraxılmalı
Font: Times New Roman, 12 ölçüdə, sətrarası məsafə 1.0;

**Təqdimat şəkli:**
Microsoft Power Point proqramında çıxışın təqdimatını hazırlayıb Təşkilat Komitəsinə göndərin

***QEYD: Forumun adına və bölmələrdə müzakirəsi planlaşdırılan mövzulara uyğun gəlməyən annotasiyalar təşkilat komitəsi tərəfindən çıxış üçün tövsiyə edilməyəcəkdir.***

## III FORUMDA İŞTİRAKÇI KİMİ TƏMSİL OLUNMA

*QEYD: Forumda dinləyici və ya müşahidəçi kimi iştirak etmək istəyən şəxs bu barədə məlumatı təşkilat komitəsinə bildirməlidir.*

**İştirakçılar bunun üçün Qeydiyyat Formasının müvafiq bölməsini dolduraraq sənədi təşkilat komitəsinə göndərməlidirlər.**

***Təşkilat Komitəsi də öz növbəsində iştirakçının göstərdiyi məlumatlar və forumda iştirakla bağlı motivasiya hissəsindəki yazıları nəzərə alaraq tədbirə ən uyğun şəxsləri seçərək onları dəvət edəcəkdir.***

## IV FORUMDA SƏRGİ TƏQDİMATI

**Forumun təşkilat komitəsi mühasibat uçotu sahəsində xidmət göstərən bütün şirkətləri tədbirə göstərdiyi dəstəyə görə öz məhsullarını iştirakçılara nümayiş etmək üçün sərgiyə dəvət edir.**

**Sərgi üçün yer məhdud olduğu üçün sərgiyə təqdim olunan məhsullar təşkilat komitəsi tərəfindən seçiləcəkdir.**

**Qeyd: Sərgilənəck məhsulların. Reklam məmulatlarının tədbir yerinə gətirilməsi, quraşdırılması, montajı və demontajı ilə bağlı xərclər şirkətlərin özləri tərəfindən ödənilir.**

**Sərgi üçün nəzərdə tutulan məhsulları ilə bağlı tələblər:**
Məhsulun adı:
Məhsulun növü (kitab, jurnal, proqram təminatı və s.)
Sərgi olunacaq məmulatların ayrılıqda siyahı sayı:
Sərgini keçirəcək şəxs haqqında məlumat (bir şirkəti bir nəfər təmsil edə bilər)**:**

**Təşkilat Komitəsi tərəfindən sərgi keçirənə təkliflər:**
Sərgi masası – 1 ədəd;
Sərgi sahəsi – 4 $m^2$;

## V FORUMDA KÖNÜLLÜ KİMİ İŞTİRAK

*Forumda təşkilatı işlərin görülməsi – iştirakçıların dəvəti, müvafiq sənədlərin çatdırılması, qonaqların qeydiyyatı, qəbulu, yerləşdirilməsi, proqrama uyğun müvafiq bölmələrə yönəldilməsi, ləvazimatlarla təchizi və s. tapşırıqların yerinə yetirilməsi üçün təşkilat komitəsi tərəfindən könüllü gənclər dəvət olunur.*

*QEYD: Forumda könüllü kimi iştirak etmək istəyən şəxs bu barədə məlumatı təşkilat komitəsinə bildirməlidir.*

**Könüllü bunun üçün Qeydiyyat Formasının müvafiq bölməsini dolduraraq sənədi təşkilat komitəsinə göndərməlidirlər.**

***Təşkilat Komitəsi də öz növbəsində könüllünün göstərdiyi məlumatlar və foruma göstərəcəyi dəstəklə bağlı motivasiya hissəsindəki yazıları nəzərə alaraq tədbirə ən uyğun şəxsləri seçərək onları dəvət edəcəkdir.***

## VI FORUMDA MÜSABİQƏ QALİBLƏRİNİN İŞTİRAKI

Forum mühasibatıq sahəsində

- ən yaxşı məqalə,
- ilin mühasibat uçotu sahəsində kitabı,
- ilin mühasibat uçotu sahəsində jurnalı,
- ilin mühasibat proqramı,
- mühasibat uçotu üzrə ilin treyneri,
- səxavətli sponsor nominasiyaları üzrə MÜSABİQƏ keçirir.

Müsabiqə ilə bağlı ətraflı məlumat forumun saytında verilmişdir: LİNK

## FORUMDA SERTİFİKATLARIN VERİLMƏSİ

Forumda iştirakçı, məruzəçi, təşkilatçı, moderator və könüllü nominasiyaları üzrə SERTİFİKAT veriləcəkdir.

### Azərbaycan mühasiblərinin II Breyn-Rinq yarışması

Milli Mühasiblər Formunda ənənəvi olaraq mühasibat uçotu üzrə intellektual Breyn-rinq oyunu keçirilir. Breyn-rinq oyununda yarışçılar MMF-in iştirakçıları arasından auditoriyaya verilən suallar əsasında seçilir və sonda qalib komandaya sponsorlar tərəfindən mükafatlar verilir.

**Forumda qeydiyyat qaydaları:** Bunun üçün forumun rəsmi saytı olan www.mmf.az – a daxil olub, "Qeydiyyat" bölməsinə girib formanı dolduraraq "göndər" işarəsini basmaq lazımdır. Sizə sənədin qəbulu ilə bağlı cavab gələcəkdir.

**Əlaqələndirici şəxs:** Radil Fətullayev

**Əlaqə məlumatları:** (994 12) 480-28-45, (994 12) 432-71-75;

**Mob:** (994 70) 511-77-31, (994 50) 531-03-81, (994 55) 203-07-85;
**E-mail:** radilfatullayev@gmail.com , ruslanatakishiyev@yahoo.com

**Forumda iştirakla ilə bağlı xərclər:** Forumun Təşkilat Komitəsi iştirakçıların Bakı şəhərindən tədbir məkanına daşınması, yerləşdirilməsi və qalması, tədbirlə bağlı material, qidalanma və sosial tədbirlərlə bağlı bütün xərcləri ödəyəcəkdir.

Xaricdən dəvət olunan qonaqların vətənlərindən Azərbaycana gəlməsi və qayıtması o cümlədən viza işləri ilə bağlı xərcləri Forumun təşkilat komitəsi tərəfindən ödəniləcəkdir.

**Forumla bağlı başlıca tarixlər:**

***Foruma ümumi qeydiyyatın başlanması: 01 Noyabr 2017***

***Məruzəçilərdən tezislərin qəbuluna başlanması: 01 Noyabr 2017***

***Məruzəçilərdən tezislərin qəbulunun son tarixi: 15 Fevral 2018***

***Foruma çıxışla bağlı müraciətlərin cavablandırılmasının son tarixi: 01 Mart 2018***

***Forumun müsabiqəsində iştirak üçün müraciətin (müvafiq nominasiyaya görə) başlanması:01 Noyabr 2017***

***Forumun müsabiqəsində iştirak üçün müraciətin (müvafiq nominasiyaya görə) bitməsi: 01 Mart 2018***

***Forumun müsabiqə iştirakçılarına cavab məktublarının göndərilməsi: 28 Mart 2018***

***Forumda Sərgi üçün müraciətlərin qəbulunun son tarixi: 15 Mart 2018***

***Forumda Sərgi üçün müraciətlərin cavablandırılmasının son tarixi: 28 Mart 2018***

***Təsdiq edilmiş məruzəçilərin çıxışlarının tam mətninin və ya təqdimatın slaydının verilməsinin son tarixi:17 Mart 2018***

***Foruma iştirak və könüllü qismində qeydiyyatın təsdiq edilməsinin son tarixi: 30 Mart 2018***

TƏŞKİLATÇI QURUMLAR
SPONSORLAR
MEDİA DƏSTƏYİ